Xalq qəzeti 2021.- 24 iyun.- S.6.



**“Qarabağın işğaldan azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir. Qafqazda yaranacaq sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəmizdə səfərdə olan zaman Milli Məclisdə çıxış edərkən bildirdi ki, biz də azərbaycanlı qardaşlarımızla bölgənin hərtərəfli inkişafı, rifahın yüksəlməsi, sabitliyin möhkəmlənməsi üçün üzərimizə düşən vəzifəni yerinə yetirməyə hazırıq”. Bu fikirləri ATU-nun kafedra müdiri, tibb elmləri doktoru, professor Hicran Bağırova Türkiyə Prezidentinin Azərbaycana səfəri və Qarabağda start götürən abadlıq işlərinə münasibət bildirərkən dedi. Professor fikirlərinə əlavə olaraq bunları dedi:**

# Yeni, müasir Qarabağ yaradılır

– Danılmaz faktdır ki, 44 günlük Vətən müharibəsi dövründə Türkiyə həm dövlət, həm də millət kimi Azərbaycana dəstək oldu. R.T.Ərdoğan bu barədə dedi: “Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, bütün dünya bilsin ki, İnşallah, sabah da yanında olacağıq. Necə ki, Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlərlə Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları – Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir”.

Xalqımız heç vaxt unutmayacaq ki, Qafqazda 30 il öncə tarixin qara səhifələrinə yazılacaq bir soyqırımı yaşandı. Türk millətinə hər cür iftira atanlar, əvvəlcə, Azərbaycana – yüz il öncəyə deyil, otuz il bundan əvvəl Qarabağda yaşananlara, Xocalıda yaşananlara baxmalıdırlar. Qarabağı, Azərbaycanın işğal altındakı torpaqlarını otuz il ərzində dağıdanları, gedərkən də geridə qalan hər şeyi yandıranları görməyənlər insanlıqdan uzaqdırlar. Türkiyə Prezidentinin təbirincə desək, “Onlar gələrkən işğalçı, gedərkən isə tarmaredici idilər”.

R.T.Ərdoğan Milli Məclisdəki çıxışında bildirdi ki, yalnız bu davranış belə Qarabağın kimin Vətəni olduğunu göstərmək üçün kifayətdir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Amma Qarabağ onların Vətəni olmadığı üçün hər şeyi yandıraraq, dağıdaraq getdilər. Onların yandırdıqları kəndləri, dağıtdıqları şəhərləri Azərbaycan indi yenidən inşa edir və İnşallah, buraları birlikdə inşa edəcəyik və yeni bir Qarabağ meydana gətirəcəyik”.

Türkiyə Prezidenti çıxışında bütün dünyaya mesaj göndərdi. Dedi ki, mədəniyyətlə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. Yenə də elə olacaq və biz bu prosesdə qardaş Azərbaycanın yanında olacağıq. O, azad Qarabağ torpağında Azərbaycan bayrağının qürurla dalğalandığını görməyin sevincini yaşadığını etiraf etdi. Şuşanın, Qarabağ xanlığının banisi Pənahəli xanın, onun vəziri, şair Molla Pənah Vaqifin, Əhməd bəy Ağaoğlunun, dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə - neçə incəsənət xadiminin, şairin yurdu olduğunu xatırlatdı. “Şuşanı gələn il Türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən məmnunluq duyarıq” – dedi.

Hicran Bağırova 44 gündə qazanılan Qələbənin tarixi əhəmiyyətini, bu bölgənin sülhə ehtiyacı olduğunu və Qarabağda görülən işləri də diqqətə çatdırdı:

– Qeyd edək ki, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Həqiqətən bu qələbədən sonra görülən və görüləcək işlərə baxdıqda yaranan mənzərəni təsəvvür etmək mümkün olur. Hər şeydən əvvəl, Qarabağın hər yerinə sabitlik, əmin - amanlıq və ümid hakim olub. Yurd – yuvalarından otuz ildir ayrı düşən azərbaycanlıların evlərinə qayıtmaq yolu açılıb. Davamlı münaqişə səbəbindən yaranan gərginlik aradan qalxıb. İndi yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları qurulur, yeni texnologiyaya əsaslanan “ağıllı şəhər”, “ağıllı kənd”, “yaşıl enerji” layihələri həyata keçirilir. Bir tərəfdən isə infrastruktur obyektləri tikilir.

Bir sözlə, yeni, müasir Qarabağ yaradılır. Türkiyə dövləti də bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox müəssisələr inşa etməyə çalışacaq. Bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Məsələn, Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər və beləliklə, özləri – özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Bu bölgənin sülhə ehtiyacı var. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə, Türkiyə də lazımi addımlar atacaq. Bunu qardaş ölkənin rəhbəri Şuşada olarkən də, Milli Məclisdə çıxış edərkən də dəfələrlə vurğuladı. Bildirdi ki, Türkiyə həmişə Azərbaycanın yanında olub və olacaq.

Hazırda bütün diqqət Qarabağa yönəlib. Çünki orada yeni, müasir Qarabağ yaradılır və bu, hamının ürəyincədir.

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*